*Əlavə ///*
*Azərbaycan Respublikası Dövlət Neft*
*Şirkətinin 18.04.14 il tarixli,*
*44 nömrəli əmri ilə*
*təsdiq edilmişdir*

SOCAR

**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin standartlaşma sistemi.**
**ARDNŞ üzrə test tapşırıqlarının tərtib və təsdiq edilməsi**
(SOCARSS – 014.2011)

---

01.1. **Standartlaşmanın məqsədi** – ARDNŞ-nin yüksək hazırlıqlı kadrlarla təmin edilməsi, kadrların ehtiyat bazasının formalaşdırılması məqsədilə verilmiş elanlara əsasən müraciət edən şəxslərin tələb olunan ixtisaslar üzrə zəruri bilik səviyyəsinin müəyyən edilməsi üçün test tapşırıqlarının tərtib və təsdiq edilməsi ilə əlaqədar münasibətlərin tənzimlənməsidir. Standartlaşmanın məqsədinə dair bu standart sənədlə tənzimlənməyən digər məsələlər məsul qurumun müvafiq qaydada təsdiqlənmiş iş planına əsasən tənzimlənir.

01.2. **Məsul qurum** – müvafiq qurum ARDNŞ-nin prezidentinin əmri ilə müəyyən edilir.

01.3. **Test tapşırığının strukturu** – test tapşırığının strukturu namizədin tələb olunan ixtisas və məntiqi bilik səviyyəsinin, Azərbaycan və ARDNŞ-nin fəaliyyət sahəsi haqqında ümumi bilgilərinin və kompüterdə işləmək səviyyəsinin müəyyən edilməsinə yönələn suallar blokundan ibarətdir.

01.4. **Test tapşırığında sualların faiz nisbəti** - test tapşırığının strukturuna uyğun olaraq sualların faiz nisbəti aşağıdakı kimi müəyyən edilir:

1. *məntiq üzrə – 30-50%*
2. *ixtisas üzrə – 30-50%*
3. *Azərbaycan və ARDNŞ-nin fəaliyyət sahəsi üzrə - 5-15%*
4. *Kompüter bilikləri üzrə - 5-15%.*

01.5. **Test tapşırıqlarına dair tələblər** - hazırlanan hər bir test tapşırığı aşağıdakı tələblərə cavab verməlidir:

1. *test tapşırıqları Azərbaycan dilində tərtib olunmalıdır;*
2. *test tapşırığı şərtdən və cavablardan ibarət olmalıdır;*
3. *hər bir test tapşırığına beş cavab hazırlanmalı və bunlardan yalnız biri düzgün olmalıdır;*
4. *test tapşırığının şərti və cavabları qısa, dəqiq, aydın və birmənalı olmalıdır;*
5. *düzgün olmayan cavablar düzgün cavaba yaxın olmalıdır.*

01.6. **Test tapşırığının hazırlanması** – sahə üzrə vitse-prezidentin göstərişinə əsasən ARDNŞ-nin daxili imkanları hesabına və ya ARDNŞ-nin sifarişinə əsasən kənardan cəlb ediləcək təşkilat tərəfindən hazırlanır.

01.7. **Test tapşırıqlarının təsdiqi** – hazırlanmış test tapşırıqları Kadrların İdarə Edilməsi Komitəsi (KİEK) tərəfindən təsdiq edilir.

01.8. **Test tapşırıqlarının mərkəzləşdirilməsi** – təsdiqlənmiş test tapşırıqları test tapşırıqlarının elektron bazasında (TTEB) cəmləşdirilir.

01.9. **TTEB-ə çıxış** – test tapşırıqlarının elektron bazasına çıxışı olan şəxslərin dairəsi KİEK tərəfindən müəyyən edilir.

01.10. **TTEB-in yeniləşdirilməsi** – test tapşırıldıqlarının elektron bazası ildə iki dəfədən az olmayaraq yeniləşdirilir.

01.11. **Test tapşırıqlarına dair məlumatın yayılmasına görə məsuliyyət** - test tapşırıqlarının hazırlanmasına, mərkəzləşdirilməsinə və tətbiqinə aidiyyəti olan şəxslər testləşmə ilə əlaqədar məlumatın yayılmasına görə məsuliyyət daşıyırlar.